ədalət.- 2021.- 18 mart.- S.6.

# "GÜLLƏ ATMAYIN BƏNÖVŞƏLƏRƏ!.."

## LƏNKƏRANDA NOVRUZ BAYRAMI



*Oyanmış torpaq*

**Günəşin səhər tezdən çıxmasını görmüsünüzmü? Baxın, sübhün gözü hələ açılmayıb. Amma dəniz tərəfdən üfüq qırmızıya boyanıb. Günəş yavaş-yavaş yatağından qalxır. Az keçməmiş qızılı şüalarını yer üzünə səpələyir, qollarını geniş açaraq, sanki ətrafdakıları salamlayır:**

**-Salam, insanlar!**

İnsanlar sevinclə deyirlər:

**-Salam, günəş!..**

Qəribə də olsa, təbiət öz yaşıl donunu həmişəkindən tez geyib.

Torpaq canlanıb, güllər bir qədər tələsib, bənövşələrin sarı ləçəkləri artıq bahar həsrəti ilə torpaqdan baş qaldırıb.

Ağaclardan süzülən günəş şüalarının ılıq nəfəsi torpağı isitdikcə ətraf yavaş-yavaş canlanır. Əslində baxanda kəndimiz sübh tezdən, günəşdən əvvəl oyanır. Budur, həmişəki kimi adamların addım səsləri ətrafın lal sükutunu pozub.

İş-güc ardınca tələsən insanlar qarşılaşdıqları anda bir-birlərilə hal-əhval tutub salamlaşır, sonra da yollarını davam etdirirlər. Mal-qaranın, qoyun-quzuların səsi həmişəki kimi kəndi başına alıb. Mal-qara ardınca qaçışan itlər heyvanları örüşə aparan sahiblərinə kömək edirmişlər kimi yanlarında atılıb-düşür, bəzən gözdən itir, bəzən də yarı yoldaca dayanıb qulaqlarını şəkləyib sürünü müşayiət edirlər. Yem ardınca çıxan quşlar səs-səsə verib civildəşirlər.

Günəş üzü yuxarı qalxır, az sonra şüalarını dağlara səpələyir, göyün üzü qəribə rəngə boyanır: qırmızı, sarı, qara rənglər bir-birinə qarışır. Günəş yenidən doğulmaq üçün dağlar arasına çəkilir. Çəkildikcə də sanki deyir:

**-Salamat qalın, insanlar!..**

*Böyük çillə, Kiçik çillə, Çilləvəçə…*

***Nədənsə hava həmişəkindən mülayim keçir. Daha nə qorxusu?! Dekabrın 21-dən yanvarın 31-dək davam edən Böyük çillə artıq arxada qalıb. Ənənəyə görə, Böyük çillə axşamında - dekabrın 21-nə keçən gecə qarpız kəsilir, ağ boranı qaynadılır. Müdrik qocalar deyirlər ki, kim Çillə qarpızı yesə, qışda üşüməz. İlk çillənin gəlişi Lənkəran tərəflərində bayram kimi qeyd edilir. Nişanlı qızların evinə Çillə xonçası - qarpızla yanaşı, növbənöv meyvə, şiniyyat, geyim və s. göndərilir.***

Adətən qışın şiddətli dövrü dekabrın 21-dən yanvarın 31-dəkdir - fevralın 1-dən isə öz yerini Kiçik çilləyə ötürür. Onun da ömrü 20 gündür. Bu vaxt yerdə "oğru buğ" baş qaldırır. Qar nə qədər yağsa da yağsın, qorxusu yoxdur, torpaqdan qalxan "oğru buğ"un təsirindən qar buz bağlamır. Fevralın 10-da "Xıdır Nəbi" gəlir. Həmin gün qız-gəlinlər bir yerə yığışaraq qovut hazırlayırlar. Biz nəslin nümayəndələrinin yadından çıxmayıb. Qovutun ətri ətrafa yayılardı. Əldaşda üyüdülüb qovrulmuş buğda şəkər tozu ilə qarışdırılaraq evin sakit bir guşəsində qoyulardı. İnanca görə, hamının yuxuya getdiyi bir vaxtda Xıdır peyğəmbər qovuta əl basacaqdı. Bu o demək idi ki, evə xeyir-bərəkət gələcək. Uşaqlar isə ciblərini qovutla dolduraraq bir-birlərinin həvəsinə ağızlarını marçıldada-marçıldada bəhsə girişərdilər.

*İkinci çərşənbədən*

***səmənilər qoyulur, qovurğa qovrulur. Qovurğaya yeddi növ taxıl: buğda, noxud, məkə (qarğıdalı), mərci, ağ boranı dənəsi, düyü və küncüt qatılır.***

Fevralın 21-dən isə Çilləvəçə gəlir - martın 2-dək olan dövrü əhatə edir. Gəncə tərəflərdə Çilləvəçəyə "Boz ay" deyilir. Hacı Mirhaşım Talışlı deyərdi ki, bu da soyuq günlərin qalığıdır, igidin ovdan qayıtdığı gün adlanır.

Mirhaşım müəllim danışardı: "Rəvayətə görə, qoca nənə ilin bu vaxtında bərk üşüyür və deyir: "Nənən ölsün, ay bala, ovda sən dondun ki!" Nənə evə girərək buxarının yanında oturur. İstilik bədəninə yayıldıqca xoşhallanır, deyir ki, şükür Allaha, deyəsən hava mülayimləşir, axı! Qoca baba səsini qaldırır. "Əgər dünənədək igidimiz salamat qalıbsa, daha qorxusu yoxdur", - deyir.

***İgiddən soruşurlar ki, soyuqdan, şaxtadan necə salamat çıxdın? "Ağır daşları dağın ətəyindən qaldırıb, olduğum yerə daşıyırdım", - cavabını verir. - Daşıya-daşıya da bədənim qızışırdı. Özümə gəldim, beləcə ovladığım quşlarla geri döndüm."***

Martın 2-dən 12-dək olan günlər "Dəvəyə dəyən günlər" adlanır. Bu on gündən ehtiyatlı olmaq gərəkdir. Yaşlıların fikrincə, bu dövr üçün yem tədarükünü lazımınca görməyən heyvandar əziyyətə düşür.

***Qabaqda hələ "Qarının qarı" deyilən günlər dayanır. Bu, 12 martla 22 mart arası olur. Demək, səliqə-sahmana başlamaq olar. 99 yaşlı Kamal Kələntərlinin məlumatına görə, qızının evinə bayramlığa gedən bir qarı qar altında qaldığı üçün həmin on gün belə adlanır.***

Sən demə, hələ qabaqda "Danaqıran" deyilən günlər gəlir. Onun da ömrü beş gündür - 22 martla 27 mart arası olur. Havanın şıltaqlığı bəzən insanları imtahana çəkir. Müdriklər deyirlər ki, qabaqda "Qırx kötük" var, ehtiyatı əldən vermək olmaz.

Onun müddəti 15 aprelədəkdir. Atalar yaxşı deyiblər: ***"Novruz gəldi, yazdır, qırx kötük də azdır".*** Belə günlərdə hava bir yerdə qalmır, bəzən şiddətli yağışlar nəticəsində daşqın və sel yaranır. Lənkəranda 1956-cı ilin mayın 26-da, 1980-ci ilin martın 20-də qarlı günlər də olub.

***Demək, hələ yazın gəlişinə arxayınlaşmaq olmaz, havada soyuqluq var. Evlərdə odun-yanacağın qurtardığını görənlər, bu dəfə həyət-bacanın bir küncünə atılmış ağac kötüklərinə əl atırlar.***

Artıq neçə gündür ki, Novruzun yaraşığı Kosa və Keçəl bayramlığa çıxaraq, şən oyun və zarafatları ilə camaata xoş ovqat bəxş edirlər.

***Hər il təntənə ilə keçirilən Novruz mərasimləri bu il pandemiya ilə əlaqədar geniş qeyd olunmasa da, ailə şəklində davam edir. Hara baxırsan səliqə-sahman var. Evlərdə, küçələrdə, iş yerlərində təmizlik, abadlıq artıb. Ürəklərdə sevinc, xoş əhval-ruhiyyə var...***

*Bu da ilin axır çərşənbəsi...*

O uzaq illərin xatirələri bu gün də yaddaşlardan silinmir. Budur, pandemiyanın şərtlərinə uyğun həyətlərdə yeddi yerdə küləş topası yandırılıb. Adamlar "Ağırlığım, azarım - bezarım, ay Allah, bu odla getsin inşallah!" deyə-deyə tonqal üstündən atılırlar.

***İnanca görə, xəstəliklər, ağırlıqlar, pisliklər od, ataş vasitəsilə yanıb yox olacaq. Belə bir inam da var: yeməkdən qabaq evdə üzərlik yandırılır. Ailə üzvləri bir-bir üstündən atılırlar. Ondan sonra hamı süfrə başına yığışır. Qərib, uzaq yerlərdə olanlar da özlərini bayrama çatdırmalıdırlar. Yoxsa, doğma ocaqdan daha bir neçə il uzaq düşməli olacaqsan.***

Adətən ilaxır çərşənbə axşamında dəmə daşmaplov qoyulur. Plova sarıkök, zəfəran qatılmır, ət xörəklərindən də istifadə olunmur. Süfrəyə tərə, kükü, sarımsaq, qatıq, müxtəlif çərəzlər düzülür. Adətə görə, Lənkəranda həmin axşam çəki, külmə yemezlər. Deyirlər ki, çəki yeyən il boyu çəkər, külmə yeyən kül olar. Mənası da odur ki, ilboyu kasıb yaşayarsan, var-dövlət səndən uzaq qaçar. Odur ki, Lənkəran tərəflərində təndirə qoyulmuş ləvəngili, simləri alınmamış "girdəbic" adlandırılan kütüm (ziyad) balığına üstünlük verirlər. Bayram axşamı üçün nişanlı qızlara ağzında qızıl üzük olan balıq, müxtəlif hədiyyələr göndərilir.

*Süfrəyə yeddi növ nemət düzülür*

***Ailə üzvlərinin sayı qədər də şam yandırılır. Ayrıca yerdə düzənlənmiş xonçada səməni, yanında üzərlik olan naxışlı bardaq, ağzında qızıl üzük olan "girdəbic" balığın baş (kəllə) hissəsi, göyərtidən hazırlanmış kükü, tərə, sarımsaq, qatıq, qovurğa, qırmızı yumurtalar və s. qoyulur. Onlara ilaxır çərşənbədə əl vurulmur. İnama görə, bunlar evə gözü olan ruhlar üçündür.***

Axır çərşənbə günü, sübh tezdən adamlar su mərasimində iştirak etmək üçün Lənkərançaya üz tutur, əl-üzlərini saf, sərin suda yuyurlar. Nişanlı qızlar üçün qırmızı lentlər bağlanmış maşın təşkil olunur. Oğlan evi nişanlı qız və onunla gələnlər üçün süfrə açır, qoyun kəsənlər də olur. Çaydan və ya bulaqdan gətirilmiş saf, sərin sudan evə, həyət-bacaya səpirlər ki, aydınlıq, ruzi-bərəkət olsun. Axşamdan qalan su isə boşaldılır, yerinə təzəsi doldurulur.

*Lənkəranda ilaxır çərşənbədə qurşaq atılmır*

***Bunu Novruz axşamında edirlər. Bayram axşamı "qurşaqatdı" mərasimi təmtəraqlı keçir. Bəzi bölgələrdə buna "şal sallamaq" deyilir. Rus millətindən olanlar da qurşaqatdıda iştirak edirlər. Adətən, papağa, ya da dəsmala pul və şirniyyat qoyulur. Hətta qonşu evlərdən birində dəsmalın arasına pişik də qoymuşdular. Sən demə, nişanlısı bu evdə olurmuş. Uşaqlar özlərini gülməkdən saxlaya bilmədilər. Söz-söhbət bir həftədən çox məhəlləni dəyib-dolaşdı.***

Novruz axşamı süfrəyə plovla yanaşı, içi ləvəngi ilə doldurulmuş bütöv toyuq qoyulur, yanında müxtəlif xuruşlar, kükü, göyərti, qatıq və s. olur. Evdə bu dəfə də ailə üzvlərinin sayı qədər şam yandırılır. Bayram süfrəsində bənövşə, nərgiz, şinəf və s. çiçəklər də düzülür.

Bayram günlərində ağsaqqalların və ağbirçəklərin üzərinə böyük məsuliyyət düşür. Böyüklər küsülüləri bir yerə yığaraq, onları barışdırırlar. Evlərə gediş-gəliş iki-üç həftəyədək çəkir. Adətən ata-ana ilk növbədə qız evinə baş çəkirlər.

*Novruz, həm də birlik və həmrəylik bayramıdır*

Lənkəranda babalardan əmanət qalan gözəl bir ənənə yaşadılır. Yerli sakinlər pandemiyanın şərtlərinə uyğun birlik və həmrəylik göstərərək Novruz, Milad, Pasxa bayramlarında bölgədə yaşayan ruslara, yəhudilərə və digər millətlərin nümayəndələrinə, o cümlədən xəstələrə, imkansızlara baş çəkir, bayram sovqatları ilə ailələrə sevinc bəxş edirlər.

***Bu gün həmin ənənəni Lüdmila Koryaginanın rəhbərlik etdiyi Lənkəran rus icması və yerli təşkilatların rəhbərləri öz üzərinə götürüblər.***

Keçən ilin söhbətidir. Şəhərdəki Heydər Əliyev meydanında qələbəlikdir. Tələsən yoxdur. Gənclər 86 yaşlı alman əsilli lənkəranlı Vladimir Şnayderin başına yığışıblar. Maraqlıdır, o, düz 77 il sonra doğma şəhərə qonaq gəlib. Böyük Vətən müharibəsindən əvvəl sürgün olunan alman ailəsindəndir.

Deyir ki, qoy başqa xalqlar da Azərbaycana gəlib tolerantlığı, multikulturalizmi bu diyardan öyrənsinlər. Faytonçu Əlinin qonşuluğunda yaşadığını və dörd yaşında olarkən onun qızı Gülənbər və digər yaşıdları ilə Novruz axşamında qurşaqatdıya getdiyindən həvəslə danışır.

Vladimir Şnayder sevincdən qanad açıb. Gənclərə qoşularaq otuzuncu illərdə almanların sevə-sevə ifa etdikləri "Qalanın dibində" mahnısını oxuyur. Görünür, keçmiş xatirələr yadına düşüb. Oxuduqca oxuyurdu:

***- Bənövşə, bənövşə!***
***Bəndə düşə!***
***Bizdən sizə kim düşə?***
***Adı gözəl, özü gözəl,***
***Gülənbər düşə!..***

**-İnsanlar, güllə atmayın bənövşələrə!..- Vladimir Şnayder dillənir və köksünü ötürür. Azacıq sükutdan sonra sözünə davam edir: - Qoy güllərin ətri hər yerə yayılsın, Qarabağda da!..**

**Etibar ƏHƏDOV,**
**Lənkəranda çıxan "Aşkarlıq" qəzetinin baş redaktoru,**
**AYB-nin üzvü**